*Azərbaycan Dillər Universiteti*

*Rəşid Behbudov küç.,134*

*Bakı, Azərbaycan AZ 1014*

## ADU Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi

## Rəqəmsal Repozitariyaya Resurs Təqdimat Forması

**№ ________** ___/________/2025

**Müəllif haqqında məlumat**

| | |
|---|---|
| * Ad və Soyad | |
| * Müəllim / Tələbə kodu | |
| * Mövzunun Adı | |
| * Fakültə və İxtisas | |
| Resursun növü məqalə, dissertasiya və s.) | |
| Resursun Formatı (məs: **pdf, doc** və s) | |
| * Email Ünvanı | |
| Telefon | |
| * Müəllif identifikatoru - ORCİD | |

**Qayda və Prosedurlar**

Azərbaycan Dillər Universitetinin (bundan sonra ADU) Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi (bundan sonra EKİXM) və müəlliflər arasında razılaşdırılan bu sənəd "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununa və "Creative Commons" lisenziyasına əsaslanır.

**1. Müəllifin İmtiyazları və Vəzifələri**

1.1. Müəllif bu formanı doldurmaqla təqdim etdiyi resursun uzun müddətli şəkildə saxlanılması məqsədilə, həmin resursun bir və birdən çox nüsxəsinin EKİXM -də saxlanılmasına icazə verir.

1.2. Müəllif ADU EKİXM tərəfindən həmin resursun ADU Rəqəmsal Repozitaryasına daxil edilməsinə və bu repozitaryanın veb saytına yerləşdirilməsinə icazə verir. Əgər müəllif əsərinin sərbəst istifadəsinə icazə verirsə, EKİXM resursu (monoqrafiya, məqalə və s.) **"Creative Commons**" lisenziyası altında açıq əlyetərlik təşəbbüsünə dəstək olaraq rəqəmsal repozitrayanın veb interfeysi vasitəsi ilə internet üzərindən istifadəsini təmin edə bilər.

1.3. Mövcud formaya əsasən, müəllif sözü gedən tədqiqat işinin müəlliflik hüququnun sahibidir. Müəllif cari resursun hər hansı bir hissəsini çoxaltmaq, təkrar istifadə etmək, həmçinin indiki və ya gələcək versiyalarını başqa mənbələrdə dərc etmək, yaymaq hüquqlarına malikdir. Müəllif sözü gedən əsərin istifadəsi ilə bağlı bütün digər hüquqları özündə saxlayır.

**2. Açıq Əlyetərlik və Embargo üzrə Ortaq İmtiyazlar**

2.1. Müəllifin tədqiqat nəticəsi rəqəmsal repozitariya ilə birlikdə başqa nəşriyyat platformasında da dərc edilə bilər. Bu halda müəllif nəşriyyatı öncədən xəbərdar etməli və həmin resursun ADU EKİXM-ə aid olan açıq istifadə formatında istifadəyə verilən rəqəmsal repozitaryaya da təqdim etdiyini bildirməlidir. Burada müəllif hüquqları ilə bağlı yarana biləcək iddialar müəllifin özü tərəfindən tənzimlənməlidir.

2.2. Təqdim edilən resurs daha öncə başqa bir bazada yerləşdirilbsə və ya müəllif öz əsərinin açıq istifadə olunmasını istəmirsə, həmin resurs üçün EKİXM müəllifə Embarqo seçimini təklif edir. Embarqo repozitariyaya təqdim edilən resursun müəyyən müddətə və ya daimi olaraq istifadəyə bağlı qalmasını təmin edir. Embarqo periodu və seçim şərtləri "Resursun

İstifadə İmtiyazları” bəndində daha detallı təqdim edilir. Embarqo müddəti bitdikdən sonra resursun istifadə imtiyazı avtomatik olaraq dəyişib açıq istifadə statusuna keçir.

2.3. İstifadə imtiyazlarından asılı olmayaraq (embarqo və ya açıq) repozitariyaya qəbul edilən bütün resursların biblioqrafik qeydləri və xülasəsi açıq şəkildə repozitariyanın interfeysində yerləşdirilir.

**3. Rəqəmsal Repozitariya**

3.1. ADU EKİXM tərəfindən təqdim edilən rəqəmsal repozitariya, internet üzərindən açıq əlyetərlik qaydalarına əməl olunaraq istifadəyə açıqdır.

3.2. ADU EKİXM rəqəmsal repozitariyasının daimi aktiv olması üçün lazım olana texniki dəstək, yenilənmə, digər indeks bazaları ilə inteqrasiyalar və beynəlxalq repozitariya kataloqlarına qeydiyyat EKİXM tərəfindən həyata keçirilir.

3.3. Repozitariyaya qəbul edilən resursların rəqəmsallaşdırılması, təsnifi, kataloqlaşdırılması və uzun müddətli şəkildə mühafizəsi üçün bütün texniki və fiziki prosedurlar EKİXM əməkdaşları tərəfindən həyata keçirilir.

3.4. ADU EKİXM Rəqəmsal Repozitariyasında toplanmış resurslar, istinad verilməklə və qeyrikommersiya məqsədilə paylaşıla, formatı dəyişdirilə, hissələr bölünərək istifadə edilə bilər.

Bu repozitariyaya əlavə olunan bütün açıq resursların (Embarqo istisna olaraq) ilkin olaraq CC BY-NC Creative Commons lisenziyası ilə istifadisinə icazə verilir. Müəllifin tələbi ilə yuxarıda göstərilən Creative Commons lisenziya seçimi dəyişdirilə bilər.

**4. Resursun Formatı**:

- Çap
- Rəqəmsal

**5. Resursun İstifadə İmtiyazları**:

- Açıq Əlyetərli (Open Access).
- Embarqo (biblioqrafik qeyd və abstrakt istisna olaraq).
- Yalnız EKİXM daxilində ADU ictimaiyyətinin istifadəsinə icazə verilə bilər.

**Seçiminiz əgər Embarqodursa, Embarqo üçün müddəti aşağıda müəyyənləşdirin**:

- Altı (6) ay;
- Bir (1) il;
- İki (2) il;
- Üç (3) il;
- Tamamilə embarqo.

**Qeyd:**

**Müəllif** **Imza____________________**

1)

2)

3)

4)

5)

**Qeyd:**

**ADU EKİXM Direktor**

**Cəmilə Əliyeva** **Imza____________________**